**Eyvaz Zeynalov**

# NADİR ŞAH

(tarixi roman)

qanun nəşriyyatı

**Eyvaz Zeynalov. NADİR ŞAH**
Bakı, Qanun Nəşriyyatı, 2024, 568 səh.

Janr: fiction/ tarixi roman
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 13.03.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Redaktor: | Əlabbas Bağırov |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-916-6

© Qanun Nəşriyyatı, 2024

Əsər Nadir şah haqqındakı məlum romanlardan daha geniş tarixi əhatə etməsi ilə fərqlənir. Şahın həyatı, sərkərdə kimi yetişməsi, fəthləri; Rusiya, Osmanlı və Moğol imperiyalarında baş verən hadisələrlə əlaqəli təqdim edilib. Onun dinə, təriqətlərə münasibəti çox ziddiyyətlidir. Son nəfəsinəcən sünni-şiə bölgüsünə qarşı mübarizə aparıb. Dini islahatlar həyata keçirib. Elə onun da qurbanı olub.

Nadir şah düşmənlərinə qarşı nə qədər amansız idisə, yeri gələndə, bir o qədər də rəhmli, ədalətli idi. Bağışlamağı bacarırdı. Fəth etdiyi ölkələrdə yerli əhali ilə humanist davranır, insanların rəğbətini qazanırdı.

Roman tarixə sadiq qalsa da, yazıçı təxəyyülü ilə cilalanıb.

## I HİSSƏ

### Proloq

Təyyarədə yanaşı oturduğumuz cavan oğlan stüardessadan türkcə aksentlə su istəyəndə, haradan olduğu ilə maraqlandım.

– Almanam, – dedi.

– Bizim dilimizi harada öyrənmisiniz?

– Almaniyada Azərbaycan türklərinin şirkətində çalışıram. Çoxdan ölkənizdə olmağı arzu edirdim. Dostlarım arzumu gerçəkləşdirdilər. Xoş təəssüratla evə qayıdıram.

O da mənimlə maraqlandı. Yazıçı olduğumu biləndə sevindi. Frankfurt Beynəlxalq kitab sərgisinə, alman dilində çap olunmuş "Nadir şah" romanımın təqdimatına dəvət aldığımı dedim.

Kitabımın birini ona bağışladım. Nadir şah haqqında məlumat verdim. Avropa tarixçiləri onu Şərqin Napoleonu, Napoleon isə Fətəli şah Qacara göndərdiyi məktubunda özünü ikinci Nadir adlandırır, ona işarə ilə yazırdı: "Şir sürüsünə başçılıq edən qoyundan, qoyun sürüsünə başçılıq edən şir güclüdü". Onu, həmçinin, Böyük Fridrix, Hannibal, Vellinqton, Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edirlər. Qərbdə Nadir barəsində hələ sağlığında və ondan sonra saysız-hesabsız yazılar, kitablar yayımlanıb.

Nadir şahın Əli Mirzə adlı oğlunun bir vaxt Avstriyada yaşadığını, orda dəfn olunduğunu, onun iki oğlunun sonralar Almaniyaya köçdüyünü bildirdim. Sözümü zarafatla yekunlaşdırdım:

– Bəlkə, təsadüfən siz elə onun nəslindənsiniz.

– Belə bir nəsillə bağlılığımdan qürur duyardım, – həmsöhbətim dedi.

Nadir şah sui-qəsd nəticəsində öldürüləndən sonra yaxınları 11 yaşlı Mustafa Əli Mirzəni Məhəmməd adı ilə İstanbula, ordan Semlinə (1718-ci ilə qədər Osmanlı imperiyasına daxildi, hazırda Serbiyada, Belqradda kiçik məntəqədi), nəhayət, təhlükəyə görə, Avstriyaya aparırlar.

Habsburq şəhərində fars agenti kimi həbs edilir. Xəbər 1745-ci ildən Habsburq sülaləsi mülklərini və 1745-ci ildən Müqəddəs Roma İmperiyasını idarə edən, Avropada ən hörmətli monarxlardan Mariya Terezaya (1717–1780) çatır. Araşdırma ilə Əli Mirzənin Nadir şahın oğlu olduğu təsdiqlənir. Təhlükəsizliyi təmin olunur, Qratsk şəhərinə alman dili kursuna göndərilir. 1756-cı ildə Mariya Terezanın istəyi ilə Əli Mirzə xristianlığı, İohann Cozef fon Semlin adını qəbul edir, onun tərəfindən oğulluğa götürülür. Hərbi akademiyanı bitirir, Avstriya–Prussiya müharibəsinə qatılır. Döyüşlərdə qəhrəmanlıqlar göstərir, medallara, “Şərəf nişanı”na, kapitan, baron (qrafdan aşağı yüksək zadəgan titulu) rütbəsinə layiq görülür. Prussiyalılar bir döyüşdən sonra Kral II Fridrixə yaralı Avstriya şahzadəsi İohann Cozefi əsir aldıqlarını xəbər verirlər. Kral şahzadəni öz malikanəsinə dəvət edir. Onun, əslində, Avşar imperiyasının padşahı Nadir şahın oğlu Əli Mirzə olduğunu öyrənir. Düşməni olsa da, hörmət əlaməti kimi onu xaç anası Mariya Terezaya qaytarır.

Növbəti döyüşdə top mərmisi şahzadənin yanında partlayır, başından yaralanır, sol ayağını itirir. Vyana ətrafındakı Baden şəhərində uzun müddət müalicə alaraq Qrats şəhərinə hərbi xidmətə qayıdır. Tirol Kufstayn qalasının komendantı təyin edilir.

1791-ci ildə polkovnik rütbəsi ilə ordudan tərxis olunur. Avstriya hökuməti ona yüksək pensiya kəsir.

Mariya Tereza Əli Mirzəyə deyir: "Sən atanın qanuni varisisən. Ölkənə qayıt, haqqına sahib çıx. Sənə kömək edərik". Əli Mirzə tovuzquşu kimi bəzədilmiş şah taxtına nifrət etdiyini söyləyir. Nadir şahın ən böyük pərəstişkarı olan Napoleon elçisi ilə ona atasının qisasını almaqda, hakimiyyətə gəlməkdə köməklik göstərməyə hazır olduğunu bildirir. Nəzakətlə deyir: "Nə mən, nə də mənim övladlarım o tac haqqında düşünür".

Əli Mirzə xan sonrakı ildə Vyanada 18 yaşlı türk əsilli Roza adlı qızla ailə həyatı qurur. Onların iki oğlu olur. Birinə Yəhya (İohann), o birinə Yusif (Cozef) adını qoyur. Oğlanları Avstriya ordusunda zabit kimi xidmət edirlər. Deyilənə görə, sonradan Almaniyaya köçürlər. Haqlarında başqa məlumat yoxdur.

Baron İohann Cozef fon Semlin (Əli Mirzə xan) 13 fevral 1824-cü ildə, təxminən, 90 yaşında Vyana yaxınlığındakı Mödlinq şəhərciyində, Grosse Pfargasse küçəsindəki 19 nömrəli evdə dünyasını dəyişir. Öz malikanəsindəki bağında dəfn edilir. "Viener Zeitung" qəzetinin 18 fevral 1824-cü il tarixli sayında, 3-cü səhifədə nekroloq verilir. Rəsmi sənədlərə Əli Mirzə Xan adı ilə imza atsa da, baş daşında İsfahanlı Baron fon Semlin yazılır.

Arvadı Roza da 6 oktyabr 1837-ci ildə həmin ünvanda rəhmətə gedir. Malikanə hazırda dövlət tərəfindən qorunur. Xatirələrində Macarıstanın quzeyində, Karpat nahiyəsində də

şəxsi mülkü olduğu barədə məlumat var. Vəsiyyətinə görə, varidatı Vyana əlillər evinə bağışlanır.

Bütün bunları heyrətlə dinləyən Hans Almaniyaya qayıdandan sonra Mustafa Əli Mirzənin oğlanlarının sonrakı taleyini ciddi şəkildə araşdıracağına söz verdi. Ünvanımı, telefon nömrəmi, e-mailimi götürdü.

## Xorasan vilayəti, Dərgəz çölü

1689-cu ilin 22 noyabrı idi. Xorasan vilayətinin Dərgəz çölündə bir köç irəliləyirdi. Bu, Dəstgird kəndinin Qırxlı oymağınındı. Bütün yayı Allahəkbər dağlarının Kabkən yaylağında yaylaqlanmış yarımköçəri avşarlar yurdlarına qayıdırdılar.

İmamqulunun arvadı Həcər ikicanlı idi. Bu gün-sabah doğmalıydı. İlk sancısı tutanda çox qorxdu, səngiyəndə sakitləşdi. Ağrısı artanda, arabanın yan dirəyindən yapışıb yerində birtəhər dikəldi. Sonu görünməyən köçdə, kişilərin arasında baxışları ilə ərini axtardı, gözünə dəymədi. Qabaqda qocaları, arvad-uşağı, mir-mitili daşıyan arabalar, ardınca köç heyvanları, qoyun-quzu, mal-qara, çoban-çoluq, nökərlər hərəkətdəydi. İmamqulu oymağın sayılıb-seçilənlərindən, köçün təhlükəsizliyinə cavabdehlərdəndi.

– Ay uşaq, əmini görməmisən? – Həcər bir qədər aralıda, tozlu yolda ayaqyalın qarğı atını səyirdən qaynı oğlunu səslədi.

O, əlini böyüklər sayağı qaşının üstündə günlükləyib ətrafa baxdı. Handan-hana:

– Odeyy... – dedi.

– Gedib çağıra bilərsən?

– Hə. Nə deyim?

– Denən, başın batsın, arvadın səni axtarır.

İmamqulunun at belində özünü yetirməsi çox çəkmədi.

– O nə sözdü, aaz?... – Çatan kimi səsini qaldırdı.

– Hansı?... – Arvadı xatırlayıb candərdi güldü. – Neyniyim, dilim öyrəşib. Şəstinə dəydi?

– Dəyər də. Camaatın arasında... Zalım oğlu da qanıb-qandırmır, tutuquşudu elə bil...

– Camaat özünə gülür. Səni davaya çağırmamışam. Heç demirsən, görüm ikicanlı arvadım öldü, qaldı? Yerim çox bey-rahatdı. Araba yaman atıb-tutur. Bir carə qıl.

İmamqulu arabanın içinə xeyli saman, onun da üstünə mir-mitili döşədi. Arvadının canı yenə rahat olmadı.

– Köç harda dincəlməyə dayanacaq?

– Özün bilmirsən?

– Vallah, heç elə bil həmişəki yol deyil. Həm uzun, həm də yorucudu.

– Bir az döz. Bax, o qarşıdakı gədiyi aşıb dayanacağıq.

– Mən dözürəm ey, bu köpəyoğlu dözmür. – Təpə kimi dikəlmiş qarnını göstərdi. – Guya yel əsib, qoz tökülüb, bir bu çatmır yığmağa.

– Oğlan olduğunu hardan bilirsən? Əkə-bikə arvadlar kimi danışırsan.

– Elə əkə-bikə arvadlardan eşitdiyimi deyirəm.

İmamqulu atını arabaya lap yaxın sürdü. Arvadının eşidəcə-yi bir səslə dedi:

– Doğrusu, mən də o fikirdəyəm, Həcər. Yuxusunu da gör-müşəm.

– Nətəər görmüsən?

İmamqulu səsini bir az da qısdı.

– Keçən Ramazan qışlaqda qoyunların arasında yuxulamış-dım. Gördüm möcüzə kimicə, günəş bizim oymaqdan doğdu. İşığı aləmə yayıldı.

– Sonra nooldu?

– Qardaşım Bəkdaşa Allah insaf versin. Harayladı, oyandım, ardını görə bilmədim.

– Yəqin yuxunu qardaşına da danışmısan? Axı, sənin ağzında söz ilinmir.

– Bəkdaş dedi, belə bir yuxunu mən də görmüşəm. Mollamızdan yozmasını istədim. Dedi, bir oğlun olacaq. Başına şahlıq quşu qonacaq. Elə bildim məni dolayır. Ciddi söylədiyini görüb dedim, molla, sözlərin çin olsa, oğluma deyəcəyəm, səni Əbivərdin baş mollası qoysun.

Həcər qəhqəhə ilə güldü. Sancı doğrayanda gülüşünü xırpadan uddu, dil-dodağını gəmirə-gəmirə əliynən qarnını yüngülcə ovuşdurdu. Handan-hana:

– Allah ətini töksün, – dedi. – Dəriçi İmamqulunun oğlu padşah olacaq!

– Danışdı də, – İmamqulu əsəbiləşdi, – az, padşahların hamısı padşah doğulur? Bir də, dəriçi İmamqulu əvəzinə İmamqulu bəy desən, dilin quruyar?

– Sən bəy olanda, mən də gərək xanım olam.

– Ol da. Bəylərdən, xanımlardan nəyimiz əskikdi? 7-8 yüz qoyunum, 15 atım, iki qatırım...

Həcər ikiəlli qarnını qucaqladı.

– Oyy, gör necə təpikləyir...

– Haqq eləyir. Deyir, atamın sözünü qəribliyə salma.

Bir azdan İmamqulunun göstərdiyi gədiyi də aşdılar. Ancaq ətrafda zirinc, turunc, qarağat, moruq kollarının, yabanı çiçəklərin, kolların bitdiyi dərə-təpədən başqa heç nə gözə dəymədi.

– Nooldu bəs, deyirdin, bu gədiyi aşıb dayanacağıq?

İmamqulu ətrafa göz gəzdirib:

– Yəqin o biri gədiklə səhv salmışam, – dedi.

– Bəsdi məni uşaq yerinə qoydun. Get gör köçdə mamaçadan-zaddan kimi tapırsan. Bəlkə köpəyoğlu heç köçün dayanmağını gözləmədi.

İmamqulu atını dəhmərləyib uzaqlaşdı. Gətirdiyi mamaça zahının vəziyyətini yoxlayıb, toxtaqlıq verdi:

– Narahat olma, bala. Vaxtına hələ var.

Qırxlı oymağı gün əyiləndə yol üstündəki Dəstgird (Məhəmmədabad) kəndinə çatdı. Hava qaralmamış çadırları qurdular. Arvad-uşağı, mal-qaranı yerbəyer elədilər.

İmamqulunun arvadı o gecə bir oğlan uşağı doğdu. Mamaça göbəyini kəsib rahatlayandan sonra çadırdan İmamqulunu muştuluqlamağa çıxdı.

– Dördböyrəkdi, dördböyrək! – Dili ağzına sığmırdı. – İndiyəcən bu yekəlikdə oğlan uşağı tutmamışam.

– Sağ ol, ay bacı, əlin-qolun var olsun!

İmamqulu dil-ağızla arvadın muştuluğunu verdi. Arada girəvələyib, yanını qaşımağı da unutmadı. Bu, mamaçanın gözündən yayınmadı.

– Qivləsiz, göz qaytarırsan? Gözümdə yoxdu. Hamısı mənim balamdı. Birinin də burnunun qanamasını istəmərəm.

İmamqulu oğluna atasının adını qoydu: Nadirqulu. Mənası “gözəllik qulu” deməkdi. Di gəl onu sonra hamı qısaca Nadir çağırdı. Belə daha sadə, asan, diləyatandı.

Nadir lap nağıllardakı kimi, aybaay, ilbəil deyil, günbəgün, saatbasaat böyüdü. Bir yaşında iki-üç yaşındakı uşaq kimiydi. Danışır, yeriyib-yüyürürdü. Atası fəxrlə deyirdi: “Ətyeyən quş dimdiyindən bəllidi”. Böyüdükcə yaşıdlarından seçilirdi. Özündən yaşlı uşaqlarla oynayırdı. Yeri gələndə onlarla qurşaq tutur, çoxunun arxasını yerə vururdu. 10 yaşında yeniyetmə

oğlan kimiydi. Qardaşı İbrahimlə dağda-bağda qoyun-quzu otarırdı. Yaxşı at çapır, ova gedir, oxu nişan aldığı hədəfdən yayınmırdı. Adi oyunlara baş qoşmur, müdafiəni xoşlamırdı.

İdarəetmə, təşkilatçılıq bacarığı yeniyetməlikdən özünü göstərirdi. Oyunda, adətən, padşah olurdu. Uşaqlar arasında saray vəzifələrini bölür, dava planları qurur, qalibləri mükafatlandırırdı. Hamı Nadirin tərəfində olmaq istəyirdi. Sonda onun qalib gələcəyinə inanırdılar. Deyirdilər, sən şahsan, döyüşə girməməli, yalnız əmr verməlisən. Bacarmırdı. "Döyüşçüləri" çətinə düşən kimi, dəli bir nərə çəkərək, meydana atılırdı. Savaş səhnələri gecələr yuxularında yenidən canlanırdı. Valideynləri qeyri-adi sayıqlamalarını eşidib narahat olurdular.

## Şah Sultan Hüseyn Səfəvi

Şah II Səfi (1647/1666–1694) kimi taxta çıxan, sonra adını dəyişən VIII Səfəvi padşahı Şah Süleyman 28 ildi hakimiyyətdəydi. Ayaqları iflic olduğu üçün son yeddi ildə hərəmxanada xacələrin ümidinə qalmışdı. Səfəvi sarayında müsəlmanlaşdırılmış qaradərili xacələr əvvəl ən aşağı təbəqə idi. At belə minə bilməzdilər. Əyanlar deyirdilər: "Biz də at minək, onlar da? Qatır, uzunqulaq bəsləridi".[1] Şah xacələrinin xidmətini dövlətə xidmət sayandan bəri vəziyyət dəyişmişdi. Xacələr nəinki əyanlardan seçilmir, hətta istədikləri adamı vəzifəyə qoydurur, vəzifədən götürdürdülər.

Şah Süleyman böyük oğlunu öldürtmüş, ikinci oğlu yanından qaçmışdı. Ölüm yatağında olsa da, hələ varis seçməmişdi.

---

[1] X Abbasi xəlifəsi Əl-Mütəvəkkil də xristian və yəhudilərə yalnız qatır, ulaq minməyi buyurmuşdu.

Qalan iki oğlundan hansını taxt-taca layiq gördüyünü soruşanda, birtəhər toparlanıb dedi:

– Ölkənin deyil, özünüzün rahatlığınızı düşünürsünüzsə, 26 yaşlı Sultan Hüseyni, dövlətin mənafeyini güdürsünüzsə, 23 yaşlı Abbas Mirzəni şah seçin.

Şiə mollaları Şah I İsmayıldan üzü bəri deyirdilər: "Şah kim olur-olsun, Səfəvi dövləti XII imam Mehdinin zühurunacan qalacaq". Ona görə, dövlətin taleyi saray əhlinin qulağına girmirdi.

Şah oğlanları hərəmxanada, xacələr arasında qapalı böyüyürdülər. Sayları, kim olduqları hamıdan gizlədilirdi. Onlara dövlət işləri, hərb sənəti öyrədilmirdi. Taxta çıxanda da xacələrin, əyanların əlində oyuncağa dönürdülər. Şah I Abbasdan (1571/1588–1629) qalma tərbiyə üsulu idi. Özü üç oğlundan böyüyünü əyanlarla ona sui-qəsd hazırlamaqda şübhələnərək öldürtmüş, iki oğlunu kor etdirmişdi. Varisi qalmadığına görə ondan sonra böyük oğlunun gürcü qızından olan oğlu, nəvəsi Şah I Səfi adı ilə taxta çıxmışdı.

Saray əhli fiziki gücü, hərbi təlimlərə marağı, diribaşlığı ilə qardaşından üstün olan Abbas Mirzədən çəkinirdi. Sultan Hüseyn qız kimi incəbelli, orta boylu, qara gözlü, gur saçlı, seyrək saqqallı, yumşaq xasiyyətli, qətiyyətsiz və ağciyərdi. Yanında heyvan başı kəsiləndə qan görüb qorxurdu. 26 yaşı olsa da, hələ at minə bilmirdi. Xacələr öyrətdilər. Dinə, namaza bağlıydı. Ona görə, "Molla Hüseyn" də deyilirdi. Müəllimi məşhur şiə müctəhidi Məhəmməd Tağı Məclisinin oğlu, Şeyxülislam, 25 cild dini əsər müəllifi Məhəmməd Bağır Məclisiydi (1627–1699).

***

Səfəvi sarayı Şah Süleymanı ölümün əlindən almaq üçün özgə vaxt adam saymadığı kasıb-kusuba dörd min tümən pul